

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 158 (23.800)

31 avqust 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da işğaldan azad olunmuş ərazilərə növbəti səfər zamanı Şuşa şəhərini mənfur düşməndən azad edərkən istifadə olunan cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda aparılan son tamamlama işləri, istənilən tip hava gəmisini qəbul etməyə imkan verəcək Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

Avqustun 29-da Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan "Qarabağ" hotelinin, Şuşa şəhərində dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstünün, görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışları, dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Xalq artisti Bülbülün ev-muzeyinin bərpa işlərindən sonra açılışları olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 29-da Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanış olublar, Şuşa şəhərinin baş planı onlara təqdim edilib. Dövlətimizin başçısı 1-ci məhəllənin, Şuşada "Otel və Konfrans Mərkəzi"nin təməlini qoyub.

Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində yenidən təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vaqif Poeziya Günlərinin rəsmi açılışında iştirak ediblər. Dövlətimizin başçısı açılış mərasimində çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondu tərəfindən təşkil edilən "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir" və "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgiləri ilə tanış olublar.

# Ali Məclis payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirib





Avqustun 28-də Naxçıvan Muxtar Respublikasında 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilmişdir.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev, Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinin rəisi Ramin İsmayılov payız-qış mövsümünə hazırlıqla əlaqədar çıxış etmişlər.

Ali Məclisin Sədri elektroenergetika və qaz təsərrüfatı sahələrində enerji itkilərinə yol verilməməsinin, təhsil müəssisələrində, eləcə də digər dövlət qurumlarında və ictimai yaşayış binalarında istilik sistemlərinin hava şəraitinə uyğun tənzimlənməsinin və qənaətlə istifadə olunmasının vacibliyini qeyd etmiş, bu sahələrdəki nöqsanları diqqətə çatdıraraq aidiyyəti üzrə tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Naxçıvan Muxtar Respublikasında ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması, sosial-iqtisadi islahatların əhatə dairəsinin genişləndirilməsi, yaşayış məntəqələrində kompleks quruculuq işlərinin aparılması əhalinin rifahını yüksəltmiş və rahat yaşayışına səbəb olmuşdur. Bütün yaşayış məntəqələrinin dayanıqlı elektrik enerjisi və təbii qaz təminatı, təhsil, səhiyyə və digər dövlət qurumlarının müasir binalarda yerləşməsi, fasiləsiz rabitə və nəqliyyat xidmətlərinin göstərilməsi, gündəlik tələbatın ödənilməsi payız-qış mövsümündə müşahidə olunan problemləri aradan qaldırmışdır. Bütün bunlarla yanaşı, hər il muxtar respublikada payız-qış mövsümünə hazırlıq tədbirləri də görülür, müşavirə keçirilərək aid qurumlara tapşırıqlar verilir. 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq da bu gün qarşıda duran əsas vəzifələrdəndir.

Ali Məclisin Sədri demişdir: Payız-qış mövsümündə diqqətdə saxlanılacaq birinci məsələ elektrik enerjisi və təbii qaz təchizatıdır. Çünki muxtar respublikada məskunlaşmanın artması, yeni yaşayış məhəllələrinin salınması, sənaye və digər enerji tutumlu müəssisələrin istifadəyə verilməsi elektrik enerjisinə və təbii qaza olan tələbatı ilbəil artırır. Hər il bu sahələr üzrə tədbirlər həyata keçirilir, yeni elektrik stansiyaları istifadəyə verilir. 2021-ci ilin ötən dövründə Şərur rayonunda 5 meqavatlıq Günəş Elektrik Stansiyası və Culfa rayonunda 1,1 meqavatlıq Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verilmişdir. Dövlət Energetika Xidməti mövcud imkanlardan səmərəli istifadə etməli, elektrik stansiyalarının gücü və tələbat düzgün qiymətləndirilməlidir. Elektroenergetika infrastrukturunun yenilənməsi davam etdirilməli, transformator və yarımstansiyalar texniki baxışdan keçirilməli, qəza-bərpa briqadaları yaradılmalıdır. Elektrik enerjisinin ötürülməsi zamanı yaranan texniki itkinin minimuma endirilməsi diqqətdə saxlanmalı, enerji israfçılığının və elektrik enerjisindən qanunsuz istifadə hallarının qarşısının alınması üçün aid orqanlarla birlikdə nəzarət tədbirləri gücləndirilməlidir.

Qeyd olunmuşdur ki, qaz təsərrüfatının yenilənməsi sahəsində həyata keçirilən tədbirlər bu il də davam etdirilmiş, Naxçıvan şəhərində yeni Qaz Kompressor Stansiyası qurulmuşdur. Bununla da yeni stansiya Naxçıvan-Sədərək qaz kəmərində təzyiqi artırmaqla yanaşı, həm də qəza hallarında abonentlərin 8-10 gün müddətində təbii qazla təminatına imkan verəcəkdir. Qaz İstismar Xidməti qış mövsümündə əhalinin təbii qaza olan tələbatını düzgün müəyyənləşdirməli, qaz təchizatı sistemi texniki baxışdan keçirilməlidir. Həmçinin texniki itki normalarının minimal həddə saxlanılmasına və qanunsuz istifadə hallarına yol verilməməli, nəzarət gücləndirilməli, işçilər müvafiq geyim və avadanlıqlarla təmin olunmalıdırlar. Payız-qış mövsümündə əsas diqqət yetirilən sahələrdən biri də kommunal-təsərrüfat sistemidir. Ona görə də yerli icra hakimiyyətləri cari il noyabr ayının 1-dək bütün yaşayış məntəqələrində qış mövsümünə hazırlıq işlərini başa çatdırmalı, qazanxanalar saz vəziyyətə gətirilməli, onların təbii qazla yanaşı, mazut və dizel yanacağı ilə də işləyə bilməsi təmin edilməlidir. İctimai yaşayış binalarında mövsümi hazırlıq işləri görülməli, yolların qar və buzdan təmizlənməsi üçün kommunal xidmət texnikaları saz vəziyyətə gətirilməlidir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikanın şəhər və rayon mərkəzləri ilə yanaşı, ən ucqar kəndlərində də hər cür şəraiti olan müasir məktəblər tikilib istifadəyə verilmişdir. Lakin bütün bunlara baxmayaraq, Təhsil Nazirliyi ümumtəhsil məktəblərini payız-qış mövsümünə hazırlamalı, tədrisin davamlılığını təmin etməli, müəllim və şagirdlərin sağlamlığının qorunması diqqətdə saxlanılmalıdır. Məktəblərdə qazanxanalar işlək vəziyyətə gətirilməli, ocaqçıların peşə hazırlığı yoxlanılmalıdır. Qış aylarında havaların soyuması mövsümi xəstəliklərlə mübarizəni aktual edir. Səhiyyə Nazirliyi bütün yaşayış məntəqələrində tibb müəssisələrinin dərman preparatları ilə təminatına nəzarəti gücləndirməli, profilaktik tədbirlər görülməli, mövsümi xəstəliklərlə bağlı maarifləndirmə işləri aparılmalıdır. Səhiyyə müəssisələrində tibbi avadanlıqların və generatorların işlək vəziyyətdə olması yoxlanılmalıdır. Gigiyena və Epidemiologiya mərkəzləri tərəfindən bütün yaşayış məntəqələrində və əhali sıxlığı müşahidə olunan yerlərdə qrafikə uyğun dezinfeksiya işləri aparılmalıdır.

Ali Məclisin Sədri demişdir: Mədəniyyət, Gənclər və İdman nazirlikləri bütün mədəniyyət və idman müəssisələrinin payız-qış aylarında davamlı fəaliyyətini təmin etməli, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi inzibati binalara və sosial obyektlərə, xüsusilə səhiyyə, təhsil, mədəniyyət və idman müəssisələrinə baxış keçirməli, ehtiyac olan təmir işləri müəyyənləşdirilərək noyabrın 1-nə qədər başa çatdırılmalıdır. Dövlət Nəqliyyat Xidməti qış aylarında sərnişin daşınması ilə məşğul olan nəqliyyat vasitələrinin texniki cəhətdən saz vəziyyətdə olmasına və yaşayış

Ardı 2-ci səhifədə

məntəqələri arasında qrafik üzrə hərəkətinə nəzarəti gücləndirməlidir. Avtomobil Yolları Dövlət Agentliyi yolların qardan və buzdan təmizlənməsi, eləcə də yarana biləcək təmir işləri üçün texnikaları işlək vəziyyətdə saxlamalı, qum ehtiyatı yaratmalıdır. Naxçıvan Beynəlxalq Hava Limanı payız-qış mövsümündə uçuşların təhlükəsizliyini təmin etməli, bütün maşın-mexanizmlər, elektrik və işıqlandırma sistemləri, rabitə qurğuları texniki baxışdan keçirilməli, tələbata uyğun yanacaq və mal-material ehtiyatı yaradılmalıdır. “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti dəmir yolu nəqliyyatında sərnişinlərin və yüklərin təhlükəsiz daşınmasına diqqəti artırmalı, vaqonların istilik sistemi yoxlanılmalı, yol təsərrüfatında ehtiyac olan sahələrdə təmir işləri aparılmalıdır. Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti içməli su və kanalizasiya sistemlərinin qışa hazırlıq vəziyyətini yoxlamalı, payız suvarma mövsümü bitdikdən sonra hidrotexniki qurğular növbəti ilə hazırlanmalı, su ehtiyatlarının yaradılması diqqətdə saxlanılmalıdır.

Ali Məclisin Sədri demişdir: Bu gün muxtar respublikada az sayda müəssisə və təşkilat maye qaz və neft məhsulları ilə qızdırılır. Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi həmin müəssisələrin qış mövsümündə fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə tələb olunan maye qaz və neft məhsullarının tədarükünü davam etdirməli, tələbata uyğun yanacaq ehtiyatı yaradılmalıdır. Fövqəladə Hallar Nazirliyi payız-qış mövsümündə yanğın təhlükəsizliyi tədbirlərinə, xüsusilə də fərdi evlərdə və ictimai yaşayış binalarında qızdırıcı elektrik və qaz cihazlarından istifadə qaydalarına diqqəti artırmalıdır. Həmçinin mövsümi qazanxana işçiləri təlimatlandırılmalı, sertifikatı olan şəxslər işə cəlb olunmalıdır. Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti standarta uyğun olmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinin, satışının və istismarının qarşısını almalı, bununla əlaqədar istehlakçılar və sahibkarlar əvvəlcədən məlumatlandırılmalıdır.

Müşavirədə tapşırılmışdır ki, İqtisadiyyat Nazirliyi daxili bazarın tələbatını düzgün müəyyənləşdirməli, tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara tədarükünü və müvafiq texnoloji rejimə uyğun saxlanılmasını təmin etməli, ehtiyatlar qorunmalıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin qış mövsümünə hazırlığı ilə bağlı tədbirlər görməli, hərbi hissələr üçün isti geyimlərin toxunması işi davam etdirilməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi payız-qış mövsümündə bütün yaşayış məntəqələrində fasiləsiz rabitə və internet xidmətlərinin göstərilməsinə diqqət yetirməli, qəzalı vəziyyətdəki xətt və dirəklər dəyişilməli, müvafiq mal-material ehtiyatı yaradılmalıdır. Ədliyyə Nazirliyi cəzaçəkmə müəssisələrinin istiliklə fasiləsiz təmin olunmasını, məhkumların isti geyim və ərzaqla təchizatını diqqətdə saxlamalıdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublika ərazisindəki hərbi hissələrdə qış mövsümü üçün tələb olunan geyim, yanacaq və ərzaq ehtiyatının yaradılması vaxtında başa çatdırılmalıdır. Əlahiddə Ümumqoşun Ordu Naxçıvan Qarnizonu üzrə qışa hazırlığın yekunu barədə Ali Məclisə məlumat verməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi payız mövsümündə yeni yaşıllıqların salınmasını, qurumuş ağacların kəsilərək hərbi hissələrə verilməsini təmin etməlidir. Eyni zamanda nazirlik muxtar respublikanın bitki və heyvanat aləminin qış aylarında qorunması üçün müvafiq işlər görməli, qida ehtiyatı yaratmalıdır. Kənd Təsərrüfatı Nazirliyi qış aylarında əkin sahələrində və meyvə bağlarında aqrotexniki və bitki mühafizə tədbirlərini davam etdirməli, Dövlət Baytarlıq Xidməti heyvandarlıq, quşçuluq və arıçılıq təsərrüfatlarının qışlamaya hazırlanmasını diqqətdə saxlamalı, mövsümə uyğun baytarlıq nəzarəti tədbirləri görülməli, torpaq mülkiyyətçiləri və fermerlər maarifləndirilməlidir. Maliyyə Nazirliyi payız-qış mövsümünə hazırlıqla bağlı tədbirlərin maliyyələşdirilməsini təmin etməli, dövlət müəssisə və təşkilatlarında elektrik enerjisi və təbii qazdan qənaətlə istifadəyə, limitə və borc qalığının yaranmamasına nəzarət olunmalıdır. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti payız-qış mövsümünə hazırlıqla bağlı görülən işləri diqqətdə saxlamalı və nəticələri barədə Ali Məclisə məlumat verməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---

*İnkişaf edən bölgələrimiz*

# Yeni tarixini yazan yurd yeri: Ordubad

## Şərq aləminin canlı muzeyi

***Ulu öndər Heydər Əliyevin “Azərbaycanın incisi” adlandırdığı Ordubad, burada mühafizə olunaraq nəsillərdən-nəsillərə ötürülən adət-ənənələr, milli-mənəvi dəyərlərimiz, yeraltı və yerüstü sərvətlər, qonaqpərvərlik, bölgənin mətbəxi və digər diqqətçəkici məqamlarla bağlı səyyahların, tarixçilərin, ziyalıların söylədiklərini toplasaq, yaqin ki, bir kitabça alınar. Və qədim yurd yerinin dününənə, bu gününə baxsaq, deyilənlərin həqiqət olduğunu təsdiq edərik.***

Ordubad, sözün həqiqi mənasında, tarixiliklə müasirliyin harmoniyasını yaratmış bir bölgədir. Bu gün o tarixilik böyük sevgi və ehtiramla qorunur. Nuhun ayağı dəydiyi Gəmiqaya bu yurdun ilkin yaşayış məskəni olduğunu ortaya qoyur. Eləcə də Ordubadın tarixi-memarlıq abidələri. Mənbələrdə Ordubadın şəhər kimi formalaşması V-VI əsrlərə aid edilir, adı isə ilk dəfə VII əsrdə çəkilib. Deyilənləri bir daha sübut edən mənbələr sırasında Ordubadda izləri yaşayan Gilan və Azad şəhərləri, buraya ayaq basanlara İçərişəhəri xatırladan qədim məhəllələri yada salmaq olar.

Bəs bu gün? Burada Ordubada səfər etmiş amerikalı jurnalist və tədqiqatçı Peter Tasenin dediklərini xatırlamaq yerinə düşür: “Ordubadın gözəl mənzərəsi var. İnsanları çox qonaqpərvər və istiqanlıdır. Gözəl mənzərələr və müasir infrastruktur turistlərin diqqətini cəlb edir. Ordubad şəhərində yaradılmış infrastruktur, həqiqətən də, Qərbi Avropanın şəhərlərindəki kimidir. Tarixən strateji yer hesab olunan Ordubada səfər edən turist və tədqiqatçılara buranın qədim mədəniyyətini tanıtmaq imkanı vardır. Ordubad şəhərində XVI əsrə aid olan bazarın yanında hazırda muzey kimi fəaliyyət göstərən tarixi Qeysəriyyə binası yerləşir. Tarixən bu regionda 3 belə, Qeysəriyyə binası olub. Digər iki Qeysəriyyə binası Səmərqənd və Təbrizdədir. Bu gün valehedici Ordubad şəhəri Şərq aləminin canlı muzeyi hesab olunur. Avropa və Asiya arasında coğrafi və etnoqrafik əlaqəni təmin edən şəhər öz tarixini və ənənələrini qoruyaraq nəsildən-nəslə ötürür”.

Əslində, Ordubadın bu günü ötən əsrin yetmişinci illərindən başlayıb. O illərdə tikinti-quruculuq işləri genişləndirilib, rayon mərkəzində və böyük kənd yaşayış məntəqələrində müxtəlif təyinatlı obyektlər həyata vəsiqə alıb. Bu gün Ordubad şəhərindəki bütün ictimai yaşayış binaları, bir neçə inzibati obyekt o illərin yadigarlarıdır. Həmin illərdə sənayenin, kənd təsərrüfatının inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Bir qədər geriyə qayıtsaq, görərik ki, 1926-cı ildə Ordubadda barama toxumu istehsal edən zavod və corab-kələğayı fabriki fəaliyyətə başlayıb. Hələ XIX əsrin sonlarından rayonda ipəkçilik inkişaf etdirilməyə başlamışdı. XX əsrin əvvəllərində artıq Ordubadda güclü ipəkçilər yetişmişdi. Onların istifadə etdikləri texnoloji avadanlıqlar burada yüksəkkeyfiyyətli ipək istehsalına imkan vermişdi. 1924-1940-cı illərdə bölgədə xam ipək istehsalı 2 min tondan 17 min tona çatdırılmışdı. Bu qiymətli məhsullar 13 dəfə qızıl medala layiq görülmüşdü. Rayon mərkəzindəki baramaaçan fabriki, iki növbədə, işləməklə, burada yüzlərlə ordubadlı özünə iş yeri tapmışdı.



Naxçıvanda yeyinti sənayesinin bünövrəsi də Ordubadda qoyulub. Belə ki, 1928-ci ildə Ordubadda meyvə-konserv zavodunun fəaliyyətə başlaması burada yeni iş yerlərinin yaradılmasına və bölgədə yetişdirilən dadlı-tamlı meyvələrdən istifadə edərək müxtəlif konservlər hazırlanmasına imkan vermişdi. Zavodda cəviz, tut, alma, heyva, armud, şaftalı, gilənar, gilas, qızılgül mürəbbələri, kompotlar hazırlanaraq SSRİ-nin müxtəlif respublikaları ilə yanaşı, xarici ölkələrə də göndərilirdi. Burada yetişdirilən meyvələr dəfələrlə beynəlxalq sərgilərə çıxarılmış, 9 qızıl medal almışdı.

Tarix və muzeylər məskəni rayonun mərkəzində 2 xüsusi elmi-texniki konstruktor bürosu fəaliyyət göstərib.



Ordubad şəhərinin qoruq şəhəri statusu alması da ulu öndərin bu bölgəyə verdiyi töhfədir.

Sovet dönəminin son illərində bütün bölgələrimiz kimi, Ordubad rayonu da baş verən hadisələrdən sığortalana bilmədi. Ölkədə tüğyan edən anarxiya, xaos, özbaşınalıq bu bölgənin də qaynar həyatını pozdu. Bəzi idarə və müəssisələr fəaliyyətini müvəqqəti olaraq dayandırdı. XX əsrin 70-80-ci illərində yaradılmış emal və istehsal müəssisələri iflic vəziyyətə düşdü. Bərəkətli torpaq sahələri əkilməmiş qaldı. Çətinliklər ordubadlıları sıxsa da, onlar doğma yurd yerindən üz çevirmədilər. Vətən, torpaq təəssübü hər şeyə üstün gəldi. Bu ziya xalqımızın ümummilli lideri Heydər Əliyev idi. Ulu öndər Moskvadan Naxçıvana qayıdandan sonra Ordubad rayonuna gəldi. Rayon mərkəzindəki böyük meydanda ordubadlıların ulu öndərimizi necə qarşılaması bu sətirlərin müəllifinin gözləri önündədir.

Bu tarixin ən mühüm sahələrindən biri ölkə başçısı cənab İlham Əliyevin bu il may ayının 10-da muxtar respublikaya səfəri zamanı Ordubad rayonunda Culfa-Ordubad magistral avtomobil yolunun, Ordubad şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin açılışında iştirakı, Ordubad Su Elektrik Stansiyasının tikintisi, Ordubad Dəmir Yolu Stansiyası ilə tanış olmasıdır. Qeyd edilməlidir ki, yeni tarixin hüdudları genişdir və statistikaya müraciət etməyə ehtiyac var. 2021-ci ilin ilk 6 ayının statistikasına baxaq.

Ümumi inkişafı xarakterizə edən əsas göstəricilər olaraq bəhs edilən dövrdə bir il öncəyə nisbətən əsas kapitala yönəldilmiş vəsaitlər 0,8 faiz, kənd təsərrüfatı məhsulu 3,2 faiz, informasiya və rabitə xidmətləri 0,1 faiz artıb. Sənaye məhsulunun dəyəri 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz artaraq 4 milyon 613 min 700 manat olub. Birinci yarım ildə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 7 istehsal və xidmət sahəsi yaradılıb, 16 istehsal və xidmət sahəsinin yaradılması hazırda davam etdirilir.

Rayonda infrastruktur quruculuğu tədbirləri çərçivəsində 2021-ci ilin birinci yarım ilində bütün maliyyə mənbələrindən əsas kapitala 30 milyon 880 min 100 manat dəyərində vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyanın dəyəri 30 milyon 83 min 500 manat olmaqla, əsas kapitala yönəldilmiş investisiyanın 97,4 faizini təşkil edib. Bəhs olunan dövrdə Kapital Bankın Ordubad filialının inzibati binasının tikintisi başa çatdırılıb. Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi tədbirlərinə uyğun olaraq 2 kənd mərkəzi istifadəyə verilib, 6 kənd mərkəzinin tikintisi davam etdirilir.

Nüsnüs kəndində 414 şagird yerlik, Ordubad şəhərində 612 şagird yerlik 1 nömrəli tam orta məktəb binaları yenidən qurularaq istifadəyə verilib. Vələver və Pəzməri kəndlərində məktəb binalarının tikintisi, Aşağı Əndəmic və Dırnıs kəndlərində məktəb binalarının yenidən qurulması davam etdirilib. Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə Nüsnüs və Yuxarı Əndəmic kəndlərində xidmət mərkəzləri də istifadəyə verilib, Kələki, Dırnıs, Unus, Vələver, Aşağı Əndəmic və Pəzməri kəndlərində xidmət mərkəzlərinin tikintisi davam etdirilib.

Rayon Uşaq Xəstəxanası üçün binanın yenidən qurulması, Nüsnüs və Yuxarı Əndəmic kəndlərində həkim ambulatoriyası binalarının tikintisi başa çatdırılıb, Dırnıs kəndində həkim ambulatoriyası binasının tikintisi həyata keçirilib.

Rayonda idmanın inkişafı 2021-ci ildə də diqqətdə saxlanılıb, Ordubad Şəhər Stadionunun yenidən qurulması davam etdirilib.

Milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdirilərək gələcək nəsillərə ötürülməsi istiqamətində zəruri tədbirlər diqqət mərkəzində saxlanılıb, rayon mərkəzində Cümə məscidi yenidən qurulub.

Nüsnüs kəndində bir körpü tikilərək, bir körpü təmir olunaraq istismara verilib. Culfa-Ordubad magistral və Yuxarı Əndəmic-Nüsnüs kənd avtomobil yollarının yenidən qurulması başa çatdırılıb. Hazırda Vənənd-Pəzməri, Aşağı Əndəmic kənd avtomobil yollarının yenidən qurulması davam etdirilir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. Əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 12 min 126 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.

Tikintisi başa çatdırılan obyektlər sırasında rayon mərkəzində və Şəhriyar qəsəbəsində içməli su təchizat və kanalizasiya sisteminin tikintisi, Nüsnüs və Yuxarı Əndəmic kəndlərində içməli su xətlərinin çəkilişi də var.

Elektroenergetika sektoruna da quruculuq proseslərindən pay düşüb. Davamlı olaraq yeni güclərin yaradılması, infrastrukturun müasir standartlar səviyyəsində yenilənməsi istiqamətində gücü 36 mVt olan Ordubad və 15,6 mVt olan Tivi Su Elektrik stansiyalarının tikintisi davam etdirilir. Bu yeni obyektlər istifadəyə verildikdən sonra muxtar respublikamızda yeni uğurlara nail olunacaq.

Ordubad həm də aqrar bölgədir. Öz dadlı-tamlı meyvələri və limonu ilə məşhur olan bölgədə bu sahədə hər il yüksək nəticələr əldə edilir. İstər əkinçilikdə, istər bağçılıqda və digər təsərrüfat sahələrində zəngin təcrübə qazanılıb. Son illər bu istiqamətlərdə qəbul edilən müvafiq Dövlət proqramları torpaq mülkiyyətçilərinin, ailə təsərrüfatlarının yeni nailiyyətlər əldə etmələrinə imkan verib. Bu baxımdan 2021-ci il də istisna deyil. Bu ilin məhsulu üçün 3937 hektar sahədə əkin aparılıb. Əkin sahəsinin 1789 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 1 hektarını dən üçün qarğıdalı, 645 hektarını tərəvəz bitkiləri, 16 hektarını ərzaq üçün bostan bitkiləri, 586 hektarını kartof və otlaqlar təşkil edir. Taxıl tədarükünü uğurla başa vuran torpaq adamları artıq gələn ilin məhsulu üçün əkin işlərinə başlayıblar.

Meyvəçilik və tərəvəzçiliklə məşğul olanlar üçün də il uğurlu gəlib.

Həyata keçirilmiş tədbirlərin nəticəsi olaraq 2021-ci ilin birinci yarım ilində bir il öncəyə nisbətən 3,2 faiz çox, yəni 13 milyon 417 min 700 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə müsbət təsir göstərib, 1 iyun 2021-ci il tarixə rayon əhalisinin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 121 nəfər artaraq 50 min 400 nəfər olub.

*Qeyd olunan bu rəqəmlər həyata keçirilən tədbirlər hesabına qazanılan uğurların bir qismidir. Hər bir uğurun arxasında isə insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına, fəaliyyət göstərməsinə hərtərəfli dövlət qayğısı dayanır. Belə qayğı illərdir ki, davamlı xarakter alıb. Bütün bunlar isə yeni tarixin yeni səhifələridir.*

**Abbas SEYİD**
***“El həyatı” qəzetinin redaktoru,***
***Azərbaycan Respublikasının***
***Əməkdar jurnalisti***

## Naxçıvanda Türkiyənin Zəfər Bayramı qeyd edilib



Avqustun 30-da Türkiyə Respublikasının Zəfər Bayramı və Türkiyə Silahlı Qüvvələri Günü münasibətilə Türkiyənin Naxçıvandakı Baş Konsulluğunun təşkilatçılığı ilə Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün Naxçıvan şəhərində ucaldılan abidəsi ziyarət edilib, əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib, tədbir iştirakçıları Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün abidəsi önünə gül dəstələri qoyub, ehtiramlarını ifadə ediblər.

Tədbir Türkiyənin Naxçıvandakı Baş Konsulluğunda davam edib.

Xatırladaq ki, görkəmli dövlət xadimi, istedadlı hərbçi Mustafa Kamal Atatürkün rəhbərliyi altında qurtuluş savaşı aparan türk ordusu düşmənə sarsıdıcı zərbə vuraraq 1922-ci il avqustun 30-da böyük zəfər qazanıb. Həmin gün Türkiyə tarixinə Zəfər bayramı kimi daxil olub. Bu zəfər türk xalqının 1919-cu ildə başladığı istiqlal mücadiləsinin hərb zirvəsi, minlərlə şəhid qanı ilə suvarılan vətən torpağının düşmən tapdağından xilası idi. Qurtuluş savaşında Azərbaycan xalqı da qardaş Türkiyə xalqına dəstək olub, döyüşlərdə iştirak edərək şəhidlər verib.

Böyük tarixi kökə malik olan Azərbaycan-Türkiyə əlaqələrinin əsasında möhkəm dostluq, qardaşlıq və etibarlı strateji tərəfdaşlıq münasibətləri dayanır. Hər iki dövlətin qurucularının – ümummilli lider Heydər Əliyevin və Mustafa Kamal Atatürkün çox güclü siyasi iradəsi məxsus olduqları xalqı və dövləti yaşadıb, bu gün də yaşadır. Qardaş türk xalqının öndəri Mustafa Kamal Atatürkün ***“Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir”*** və ümummilli liderimiz Heydər Əliyevin ***“Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir”*** kəlamları Azərbaycan-Türkiyə münasibətlərini xarakterizə edən mükəmməl konsepsiyadır. Bu konsepsiya ötən il 44 günlük Vətən müharibəsində də, bu il qardaş ölkədə baş verən meşə yanğınları zamanı da özünü ən parlaq şəkildə göstərib.

**✍ Nail ƏSGƏROV**

***Hər bir böyük sənətkar öz yaradıcılığında üç ədəbi-fəlsəfi konsepsiyanı şərh etmək istəyir: dünya nədir, insan kimdir, zaman nədir. Bu konsepsiyalarda insanın daxili aləmini, dünyanın yaranışını və insan-zaman kəsişməsini şərh edə bilən sənətkar əbədi yaşamaq hüququ qazanır. Bir sıra hallarda ötəri mövzularda yazılan ədəbi əsərlər yaşamır, ancaq yuxarıda adıçəkilən ədəbi kredonun tələblərini ödəyən əsərlər yaşayır. Nümunə üçün Səməd Vurğunun siyasi basqılara cavab vermək üçün yazdığı “Komsomol poeması” şairin öz təbiri ilə desək, “öldü”, amma həmin poemanın sonundakı “Dünya” şeiri ölmədi, çünki, orada şairin dünya haqqında düşüncələri yer almışdır.***

***2021-ci il “Nizami Gəncəvi ili”dir***

## Nizami Gəncəvinin fəlsəfi görüşləri

### *(“İskəndərnamə” poeması əsasında)*



Şərqin mütəfəkkir şairi Nizami Gəncəvinin “Pənc gənc” ( Beş xəzinə), yəni “Xəmsə” si özündən sonra bir sıra şairlər, o cümlədən Hafiz Şirazi, Bədr Şirvani və başqaları tərəfindən yüksək qiymətləndirilmiş, Nizami əsərləri mövzusunda 500-ə qədər şair nəzirə yazmışdır. Bu ardıcıllar içərisində sənətkarlıq baxımından hind şairi Əmir Xosrov Dəhləvi (1253-1325), Azərbaycan şairi Əşrəf Marağayi, özbək şairi Əmir Əlişir Nəvai (1441-1501) və başqaları daha çox seçilmişdir.

Nizami əsərlərini onun yaş salnaməsinə böləndə belə, məlum olur ki, o, bir yazdığını bir daha pozmamışdır.

Uzun bir dövrdə Qərbdə Hegeldən üzü bu yana, o cümlədən E.Renan, B.Rassel belə fikir irəli sürmüşlər ki, Şərqdə əsl mənada filosof olmamışdır. Onların fikrincə, Şərqdə yalnız şairlərin əsərlərində fəlsəfi fikirlər vardır. Və adıçəkilən filosoflar da bu cür düşünmüşlər ki, Şərq xalqlarının düşüncəsində sxolastika və mistikadan başqa bir şey olmamışdır. Zakir Məmmədov “Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir” monoqrafiyasında (Elm-1978) bu fikri altüst etmişdir.

Məlumdur ki, Azərbaycanda və ümumiyyətlə, müsəlman ölkələrində ərəb və fars dilləri uzun bir dövrdə dominant olmuşdur. Təhsilin ərəb dilində olması milliyyətcə başqalarının, o cümlədən azərbaycanlıların bu dildə əsərlər yazmasını mütləqləşdirirdi. Bu ənənə XIX əsrə qədər davam etmişdir, hətta Abbasqulu ağa Bakıxanov (1794-1847) belə, öz fəlsəfi əsərlərini “Əsrarül-məlakət” ərəb dilində yazmışdır. Azərbaycanda fəlsəfi fikir o dövrün müsəlman dünyası fəlsəfi fikri ilə sıx bağlı olmuşdur. Bəhmənyar, Eynəlqüzzat, Şihabəddin Suhrəvərdi, Əbuhəfs Ömər Suhrəvərdi, Siracəddin Mahmud Urməvi kimi Azərbaycan mütəfəkkirlərinin fəlsəfi irsi Biruni, Fərabi, İbn Sina kimi şəxsiyyətlərin davamı kimi səciyyələndirilir.

Nizaminin əsərlərində boş bir misra belə, yoxdur. Böyük şairin əsərlərində son fikir şairin özünə məxsusdur və müəyyən ictimai-fəlsəfi mündəricə daşıyır. Məsələn, “Sultan Səncər və Qarı” hekayətində son olaraq Nizami Qarının dili ilə deyir: “Dağların məni döydü, söydü, mənim abrım getdi, sənin ədalətin”.

Hər bir yazıçının yaradıcılığını onun “yaş senzi” ilə əlaqələndirsək, belə fikir yürütmək olar ki, müdriklik yaşında o, daha təkmil əsərlər yaradır. Məsələn, M.F.Axundov gəncliyində şeir, nəsr, orta yaşında dram, qoca yaşında isə “Kəmaləddövlə məktubları” kimi fəlsəfi-ictimai traktatını yazıb.

Nizaminin “İskəndərnamə”si, bu mənada, şairin ədəbi kredosunun yekunudur. Buna görə də şair “İskəndərin yeddi alim ilə xəlvətə çəkilməsi” hissəsində şərti olaraq filosofları bir yerə yığır. İskəndər onlara dünyanın yaradılışı haqqında sual verir:

*Kimsənin qəlbinə heç toxunmadan,*
*Yeddi filosofu seçdi bu zaman.*
*Ərəstu – tədbirli bir vəzir idi.*
*Bəlinas – cavanmərd, Sokrat – pir idi.*
*Valislə Əflatun bir də Fərfiryus –*
*Heyrandı onlara o rühülqüds.*

Padşah “varlığın ilk tarixindən” danışmaq üçün birinci sözü Ərəstuna verir. Ərəstun – Aristotel, məlum olduğuna görə, həm “Metafizika” yazıb, həm də “Poetika”. Sonuncu əsər filoloji nəzəriyyədə dərslik rolu oynayır və bu gün də əhəmiyyətini itirməyib. Onun məşhur kəlamı vardır: “Platon mənim dostumdur, ancaq həqiqət dostluqdan üstündür”.

Ərəstunun dedikləri bugünkü heliosentrik nəzəriyyəyə yaxındır. Bu gün belə düşünülür ki, əvvəl, xaos olub, sonra kosmos yaranıb, daha sonra bizim planetlər Günəş ətrafında düzülüş-nizam mərhələsinə gəliblər. Ərəstun deyir:

*Əvvəl vardı ancaq bir hərəkət,*
*Onu iki yerə ayırdı sürət.*
*Bu iki hərəkət gəlib bir yerə,*
*Yeni bir hərəkət doğurdu hərə.*
*Əvvəlki hərəkət ayrıldı yenə,*
*Bu üçü qoşuldu biri-birinə.*
*Üç xətt zahir oldu üç hərəkətdən,*
*Üç dövrə yarandı ondakı xətdən.*
*Mərkəzdən ayrıldı həmin dövrələr,*
*Yaranıb ortaya çıxdı bir cövhər.*
*Cövhər keşməkeşdən doğub parladı,*
*“Hərəkət eyləyən cism” oldu adı.*

Burada diqqəti çəkən məqam yuxarıda qeyd etdiyimiz Xaosun hərəkəti və onun Kosmosu yaratması fikridir. Xaotik hərəkətin fizikadakı adı onun qanunauyğunluğunu kəşf edən alimin adı ilə “Broun hərəkəti” adlanır. Bu fizika qanunu asanlıqla cəmiyyətə şamil olunur. Belə ki, ictimai formasiyaların dəyişməsi zamanı xaotik hərəkət, sanki bir “qanunauyğunluğa” çevrilir. Bu zaman cəmiyyətdəki qanun pozuntuları “qaynar qazan”dakı hərəkətə oxşayır. Nizamsızlıq tədricən nizama çevrilir və statik hala gəlir. Buradan belə bir nəticə hasil olur ki,” dünyagörüşü” sözü “kosmogörüş”dən kiçikdir. Zira, biz nəinki dünyanın, təbiətin , həm də kosmosun bir hissəsiyik. Və indi bizim işlətdiyimiz bir sıra ölçülər bizim “arşınımıza görə”dir. Məsələn, gecə və gündüz bizim dünyamızın zaman ölçüləridir, kosmosda, artıq bu “zaman” işə yaramır, orada başqa ölçülər var. Və ya yuxunun süreti ilə bizim zamanın sürəti uyğun gəlmir.

Bundan sonra Nizami, filosofun Göy, Yer, – dörd ünsür – od, su, torpaq və hava, daha sonra bitkilər və nəbatat haqqında fikirlərini poetik dillə təqdim edir. Bu və bundan sonra da görəcəyik ki, Nizami filosofların fikirlərini oxucuya təqdim edərkən həm onların yaradıcılığına bələdliyini nümayiş etdirir, həm də onlara yaradıcı münasibətini göstərir.

Ərəstunun mərkəzəqaçma anlayışı çox mütərəqqi bir anlayış olmuşdur. Məlumdur ki, mərkəzəqaçma mexanizmi cisimlərin kütlə sıxlığını müəyyən edir və kiçik cisimlər böyük cisimlər tərəfindən cəzb edilir. Ay Yerin təbii peykinə, planetlər Günəşin təbii peykinə çevrilir. Bu zaman böyük cisim kiçik cismi cəzbetmə trayektoriyasına salır.

Valisin (Fales – qədim yunan filosofu Miletli Fales. (e.ə.634-548) fikrincə, əvvəl su olmuşdur, qızğın hərəkətdən od əmələ gəlmişdir. Onun “suyun qatılığından Yer yarandı” fikri Ərəstunun “təmiz su xıltdan ayrıldı və həmin xıltdan torpaq yarandı” fikirləri ilə səsləşir. Valisə görə, “Sudan kainat yarana bilməz” fikrinə zidd gedənlər nütfəni yada salsınlar.

Əgər əvvəlki iki filosofun materialist düşüncə tərzi görünürdüsə, Bəlinas idealist cəbhədən çıxış edir. “Gözü nur, nuru göz yaratmışdır”, – deyən Bəlinas birinci işıqlı odu, ikinci havanı, üçüncü suyu, dördüncü torpağı əsas götürür.





Sokrat da öz idealist fikirlərini İskəndərin hüzurunda belə şərh edir: O güman edir ki, ildırım, Günəş, Ay, ülkər, şimşək, yağış... hamısı Yaradanın işidir.

Fərfuryus idealist cəhətdən çıxış etsə də, belə qərara gəlir ki, hərəkət edən və sükunətdə qalan varlıqlar dünyanın maddi formasıdır.

İskəndər məclisi xətm eləyərək bildirir ki:

*Dünyanın nəqşini bir nəqş edən var.*
*Bundan artıq demək mənasız olar.*

Göründüyü kimi, İskəndər də idealist anlayışı rədd etmir. Bu işin bir sirr olduğu qənaətindədir.

Və nəhayət, Nizaminin dedikləri maraq doğurur. Nizami də bir sıra şairlər və filosoflar kimi kainatın yaradılışının, dərkinin çətin bir iş olduğunu qeyd edir: “Nizami, bu qapı açar götürməz” – yəni yaradılışı dərk etmək çətindir. Cavid də “Peyğəmbər”də dərketmədəki çətinliyi qeyd edirdi. Nəsimi də Allahı dərk etmək üçün qəlbin gözünü məqbul hesab edirdi: “Surəti-nəqşində hər kim görməsə nəqqaşini, Vahidi-surət onun gözsüz yaratmış başini” – yəni “Vahidi-surət”i – Allahı – insanın surətində (üzündə) dərk etmək üçün görən göz lazımdır.

Doğrudan da, materiya və ruh bir-birində üzvi surətdə mövcuddur. Ruh nə qədər ki, hərəkətdədir, materiyanı hərəkət elətdirir. Amma “Bir nəfəsdir bu sürəksizcə həyat, Bir nəfəs –getdimi gəlməz, heyhat” (H.Cavid).

Kainatda bütün flora və fauna canlıdır, özündə o ruhu yaşadır. Ağaclar, çiçəklər daxil, hamısına duyğular verilib. Fəlsəfənin bütün kateqoriyaları və qanunları təbiət və cəmiyyətə sirayətdir. Alov – közün ruhudur, alov (ruh) o közdən çıxandan sonra yerində kömür (çəsəd) qalır.

Nizami də “Böyük yaradıcı”nın əvvəlcə əqli yaratdığını deməklə tam idealist olmur. Lakin:

*Hər nəqşə çəksə də qadir yaradan,*
*Əqlin nəzərindən etmədi nihan.*
*Yalnız ilk nəqşəni gizli nəqş etdi,*
*Əqlin gözündən də onu gizlətdi –,* deyir.

Doğrudan da, insan ağlı müəyyən məsafəyə qədər kainatın sirlərinə bələd olur. Oradan o yana çətindir. Məsələn, kainatın sonu varmı? Ya bəlkə, bu da mübhəmdir. İnsan kəşf etdiyi maşına insanı dərk edən göz verməyib kimi, bəlkə “Böyük yaradıcı” da insana elə bir göz verməmişdir və buna görə də insan elminin qurtardığı yerdən din başlayır.

*Nizami bəşəri ideyalara malik dünya şairidir. Onun fəlsəfi, ictimai, bədii fikirləri “Xəmsə”nin bütün varlığındadır. Ölkəmizdə 2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi isə Prezident cənab İlham Əliyevin Azərbaycanın zəngin ədəbi irs və mədəniyyətinin qorunub saxlanması, gələcək nəsillərə çatdırılmasına yüksək qayğının təzahürü olmaqla, bu tükənməz bədii söz xəzinəmizin fəlsəfi-poetik çalarlarla yenidən araşdırılması və tədqiqini, habelə öyrədilməsini bir daha aktuallaşdırmışdır. Heç şübhəsiz ki, “Nizami Gəncəvi ili” nizamişünaslığa öz misilsiz töhfələrini verməklə ədəbiyyatşünaslıq tariximizə yazılacaq.*


**Seyfəddin EYVAZOV**
***filologiya üzrə fəlsəfə doktoru,***
***Naxçıvan Muxtar Respublikasının***
***Əməkdar müəllimi***


## Əsgərlərə 18 ton üzüm və 5 ton alma sovqat verilib





Ordumuzun qüdrətini artıran, hərbçilərimizdə mənəvi ruh yüksəkliyi yaradan mühüm amillərdən biri də xalq-ordu birliyidir. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqətdə saxlanılır, ardıcıl tədbirlər həyata keçirilir. Ordu quruculuğu istiqamətində aparılan silsilə tədbirlər çərçivəsində hərbi hissələrin ərzaq təminatı, əsgərlərin yüksək kalorili, zəngin vitaminli yerli məhsullarla qidalanması işi yüksək səviyyədə təşkil olunub. Bununla yanaşı, yerli əhalinin, dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin hərbi hissələrə sovqat aparmaları da şəxsi heyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır.

Növbəti dəfə xalq-ordu birliyinə nümunə olaraq əsgərlərimiz üçün Babək rayonunun Nehrəm qəsəbəsində fəaliyyət göstərən “Sumqala” üzümçülük təsərrüfatında yetişdirilən 18 ton üzüm və 5 ton alma Naxçıvan Qarnizonuna təhvil verilib.

Bu münasibətlə əsgərlərlə keçirilən görüşdə təsərrüfatın baş aqronomu İsgəndər Abdullayev muxtar respublikada sahibkarlığa göstərilən diqqət və qayğıdan bəhs edib, əsgərlərə sovqat verilməsini xalq-ordu birliyinin möhkəm təməllərə əsaslandığının göstəricisi olduğunu qeyd edib.

Polkovnik leytenant İlkin Nəsirov, mayor Orxan Seyidov və əsgər Əli Əhmədov xalq-ordu həmrəyliyindən danışıb, belə tədbirlərin əhəmiyyətini vurğulayıblar.

**Xəbərlər şöbəsi**

*Çıxıram seyrinə kökü minilliklərin bağrını dələn, namərdə boyun əyməyib mərdə könlünü verən, köksündə güllər, çiçəklər bitirən, yaşı ötdükcə gəncləşən, gözəlləşən şəhərimin. Hər qarışına toxunduqca bir əlinə silah alıb düşməninə meydan oxuyan, digəriylə Vətən torpağını bar-bərəkətə, naz-nemətə çevirən ulu babamın məğrur ayaq səslərini, gecələr çıraq işartısında təfəkkürünü, düşüncəsini ilmələrə kökləyən, sabahlar tarlada həyat yoldaşı ilə çiyin-çiyinə zəhmətə qatlaşan ağbirçək nənəmin günortaları beşik başındakı "laylay dedim yatasan, qızılgülə batasan" sözlərinin ahəngini, qəlbəyatan həzinliyini duyuram. Keçirəm əsrlərin yadigarı qol-budaqlı çinarların meh gətirən çətirindən, nostalji hisslərə bürünən gözlərimi çəkməmirəm uşaqların şən-şaqraq səslərinə qərq olan doğma məktəb yollarından, tamaşa edirəm mahir bir rəssamın fırçasından yoğurulan könüləcan küçələrə, xiyabanlara. Budur, artıq dayan deyir qəlbi söz boğçasına çevrilən, dilindən ləl-cavahir süzülən, sinəsində minilliklərin mənəvi yükü gizlənən abidələşən daşlar. Söhbət açır bu yurdun dünənindən, bu günündən mənə onlar. Sanki daşlar söyləyir, mən dinləyirəm...*



# Ulu diyarımın daş yaddaşı

## *Daşlar söyləyir, mən dinləyirəm...*

Qopuzu bağrına basır Dədəm Qorqud sinəsi sözlə dolu bir elin, bir yurdun ulu keçmişinə aparır məni, adət-ənənəmizi aşılayan müdrik söhbətləri ilə nəsihətlər verir, bir andaca bu nurani el ağsaqqalının təfəkkür dünyasının inciləri sərilir gözlərim önünə. Oğuz igidlərinin nərəsindən, Qazan, Beyrək, Qanturalı, Buğac, Dəli Domrul kimi igidlərin qəhrəmanlığından, Burla xatın, Banuçiçək, Selcan xatın kimi qadınların sadiqliyindən, vəfasından söhbət açır, Şöklü Məlik, Qara Məlik kimi düşmənləri, ailə içinə nifaq salan Aruz kimi xəyanətkarları pisləyir. Oğuz yurdunun müasir gözəlliyi qarşısında heyranlığını da gizlətmir, keçmişdə olduğu kimi, indi də ağsaqqal sözünə, ağbirçək öyüdünə verilən qiyməti yüksək dəyərləndirir.

Vətəninə sevgi və sədaqət amalı uğrunda mübarizə aparan Koroğlu əyləşir Qıratın belinə, əlində ildırım parçasından hazırlanan Misri qılıncı ilə bu yurda xor baxan namərdlərə meydan oxuyur, qarşısına çıxan maneələrdən qorxmur, daim düşmənlə açıq, üzbəüz döyüşə can atır. Dəmirçioğlu, Eyvaz, Dəli Həsən, Bəlli Əhməd və neçə-neçə torpaq, yurdsevər oğulların igidliklərindən söz açır, Nigar, Məhbub, Telli kimi qadınların ox atmağı, qılınc çalmağı, at oynatmağı heç də kişilərdən pis bacarmadığını deyir. "Həmzənin Qıratı qaçırması" qolundan danışır, Həmzənin Toqata atını qaytarmağa gələn Koroğluya dediyi "Koroğlu, sən Qırat üçün gəlmişdin, onu da minmisən. Mən sənin yerinə olsam, səssiz-səmirsiz çıxıb gedərəm" kinayəli sözünə xalq qəhrəmanının məğrurcasına verdiyi "Əgər atı səssiz-sədasız aparsam, mən də olaram Həmzə də. Onda sənlə mənim aramda day nə təfavüt qalar" cavabını xatırladır.

"Babək" abidəsi bir əlində düşmən gözünü xofa salan qılıncı, digərində yadellilərə qarşı sədd çəkən qalxanı tutan, gənc yaşlarından böyük sərkərdəçilik qabiliyyətinə yiyələnən, 816-cı ildən xürrəmilərə başçılıq edən qəhrəmanın xalqın azadlığı yolunda apardığı müqəddəs amaldan danışır. Xilafətə qarşı, təxminən, 17 illik mübarizəsi zamanı döyüşlərdə qazandığı uğurlardan, verdiyi itkilərdən, Bəzz qalasının müdafiəsinə qalxaraq silahdaşları ilə birgə göstərdiyi coşqun mübarizə əzmindən bəhs edir. Abidəyə tamaşa etdikcə Babək filmindən fraqmentlər gözlərim önündən gəlib-keçir, qüvvələrin qeyri-bərabər olduğu son döyüşdə məğlubiyyətə uğrayan Babəkin öz tanışı Səhl ibn Sumbat adlı bir vilayət hakimi tərəfindən satılması, eləcə də qəhrəman edam olunan zaman sonadək əzmini itirmədiyi o tükürpədici görüntüləri xatırladıqca yurdsevər igidimə olan fəxarət hissim daha da artır.



Budur, üzərini görkəmli sənətkarın yaradıcılığına məxsus həndəsi naxışların bəzədiyi və sərbəst şriftlə "Əcəmi Naxçıvani" sözləri yazılan Əcəmi abidəsi önündəyəm. Naxçıvan memarlıq məktəbinin banisi olan Əcəmi Əbubəkiroğlunun qədim diyarımızı təkcə Türk dünyasında deyil, bütün Şərq aləmində tanıtmasından, Səmərqənddən Təbrizə, Marağadan Konyaya qədər hər bir sənətkarın bu görkəmli memarın sənət nümunələrindən ilham almasından keçirdiyi fəxarət hissini duyuram. Şərqdə ilk dəfə qadının adına ucaltdığı Mömünə xatın türbəsinin baştağında kufi xətti ilə yazdığı "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar" sözlərini yada salaraq biz gəncləri də ulu babalarımız kimi özümüzdən sonra iz buraxmağa səsləyir. "Atababa günbəzi" adı ilə tanınan 1162-ci ildə ucaltdığı Yusif Küseyir oğlu türbəsinin həndəsi biçimi və gözəl harmonik quruluşunu böyük zəhmət hesabına ərsəyə gətirdiyini, türbənin kitabəsinə həkk etdirdiyi "şeyxlərin başçısı" sözlərini xatırladaraq Yusif Küseyir oğlunun şəhərdə yaşayan, ali ruhani təbəqəsinə və həmin vaxt Naxçıvan şəhərində fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə məxsus xanəgahların başçılarına rəhbərlik etdiyini bildirir. Cümə məscidini inşa etməsini Naxçıvanda İslam dininin yayılması ilə əlaqələndirir, insanları düzgünlüyə, doğruluğa səsləyən, müqəddəs məramlar aşılayan bu dinə etiqadın yaşadığı dövrdə daha da çoxaldığını deyir. Əcəmi seyrəngahına tez-tez üz tutan gənc memarlarla, miras qoyduğu abidələrin önündə dayanıb molbert arxasında işləyən rəssamlarla böyük qürur hissi keçirdiyini, qarşısındakı beynəlxalq tədbirlərə ev sahibliyi edən Heydər Əliyev Sarayının, buradakı Heydər Bulağının, Naxçıvan Müəllimlər İnstitutu binasının da şəhərin memarlıq üslubuna, əsrarəngiz görünüşünə əlavə rəng qatdığını söyləyir.

Bəhruz Kəngərli adına Rəssamlar Parkındayam. Azərbaycan rəssamlıq sənətinə yeni üslub və milli ruh gətirən, zəngin yaradıcılıq imkanlarına malik olan görkəmli rəssam Bəhruz Kəngərlinin heykəli önündə sənətkarın yaradıcılıq dünyasına səyahət edirəm. Böyük sənətkarın orta əsr miniatür



sənətindən realizmə keçid edərək bununla da yeni boyakarlıq məktəbini yaratmasından, təsviri sənəti təkrarolunmaz forma, janr və təsvir vasitələri ilə zənginləşdirməsi prosesindən danışır mənə bu abidə. Görkəmli rəssamın ustalıqla işlədiyi erməni daşnaklarının azərbaycanlılara qarşı törətdikləri soyqırımı siyasətinin acı nəticələrini əks etdirən "Qaçqınlar" silsiləsindən, eləcə də tariximizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi özündə təcəssüm etdirən, poetik çalarlarla kətan üzərinə köçürdüyü "Mömünə xatın türbəsi", "İmamzadə", "Şəhər məscidi", "Əshabi-Kəhf", "Nuhun qəbri" əsərlərindən bəhs edir. Ümummilli liderimiz Heydər Əliyevin ***"Bəhruz Kəngərli nadir istedada malik insan idi. O, Azərbaycan xalqının professional rəssamlıq sənətində ilk rəssamdır. Onun əsərləri Azərbaycan rəssamlıq sənətinin, mədəniyyətinin ən görkəmli nümunələrindəndir. Biz bununla fəxr etməliyik. Fəxr etməliyik ki, Azərbaycan xalqının belə böyük istedada malik insanları olubdur"*** sözlərini onun sənətinə verilən ən böyük qiymət kimi dəyərləndirir. Müasir dövr Naxçıvan rəssamlığından da söhbət açaraq bu gün qədim diyarın gözəlliyini özünəməxsus elementlərlə kətan üzərində canlandıran, təsviri sənət adamlarının fəaliyyətini, Bəhruz Kəngərli irsinin yaşadılmasını təqdir edir.

"Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla Azərbaycanda, eləcə də Yaxın Şərqdə satirik jurnalistikanın əsasını qoyan Cəlil Məmmədquluzadəyə ucaldılan abidə mənə görkəmli maarifpərvər insanın Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Əliqulu Qəmküsar kimi yazıçı və jurnalistlərlə möhkəm ideya-yaradıcılıq əlaqəsindən, təbliğ etdiyi dərin demokratizm və azadlıq ideyalarından danışır. Müəllifi olduğu, ona xalq məhəbbəti gətirən, beynəlxalq aləmdə böyük nüfuz qazandıran jurnalda dərc etdirdiyi satirik məqalələrə, felyetonlara görə Çar hökuməti tərəfindən tez-tez məhkəmə məsuliyyətinə cəlb edilməsini, dəfələrlə təqib olunmasını ürəkyanğısı ilə dilə gətirir. "Ölülər" dramında geriliyi, avamlığı, cəhaləti, "Anamın kitabı"nda milli ruhun müqəddəsliyini, doğma ana dilinin paklığının qorunması məsələsini qabartdığını, "Qurbanəli bəy"də mülkədar nəslinin qəddarlığını, camaata laqeyd münasibət göstərdiyini, "Dəli yığıncağı"nda "dəli kimdir?" fəlsəfi sualı ilə o dövrdəki cəmiyyətin ən müxtəlif zümrələrini bədii mühakiməyə çəkdiyini deyir. Yaşayıb-yaratdığı doğma Naxçıvanında, eləcə də adını daşıdığı Naxçıvan Dövlət Musiqili Dram Teatrında bir vaxtlar görmək arzusunda olduğu tamaşaların göstərilməsini, səhnənin bacarıqlı, istedadlı, canlandırdığı obrazı yaşayan və yaşadan sənət adamlarının ixtiyarına verilməsini rəğbətlə alqışlayır.

Əvvəlcə bir dəqiqəlik sükutla xatirəsini andığım 1990-cı il yanvarın 19-da mənfur düşmən gülləsinə tuş gələn şəhid İdris Məmmədovun abidəsi önündəyəm. Şəhidimin məğrur baxışları cəbhə yoldaşları ilə birgə erməni birləşmələrinə qarşı apardığı mübariz döyüşdən söhbət açır, torpağımızın yağılardan qorunmasına, əmin əllərdə olduğuna sevinir, tez-tez ziyarətinə gələn gənclərimizin vətənpərvərliyindən qürur duyduğunu deyir. Abidə bir neçə dəqiqəlik ağrılı-acılı müharibə illərinə qaytarır məni, Sədərəyin etibarlı müdafiəsində, doğma ana yurdumuzun göz bəbəyi kimi qorunmasında səngərdə döyüş aparan cəsur oğulların şücaətləri ilə yanaşı, dahi siyasətçi Heydər Əliyevin də misilsiz xidmətləri olduğunu vurğulayır, Sədərək-Dilucu ümid körpüsünün açılması ilə Vətən yolunda şəhid olan oğulların da ruhuna rahatlıq gəldiyini söyləyir. Daha o çətin, məşəqqətli illər arxada qalıb, indi güclü bazaya malik nizamlı ordumuz var, paradlarda, təlimlərdə atılan top mərmilərinin səsini duyduqca yurdumun gələcəyinə inamım daha da çoxalır, –deyir döyüşdə olduğu kimi yenə də dik, mübariz dayanan şəhidim. Dillərdə dastan olan Günnüt əməliyyatı barədə, 44 günlük Vətən müharibəsində qazandığımız Qələbədə igid eloğullarımızın qəhrəmanlıqlarından danışmağa isə saatlar bəs etməz, bütün şəhidlərimiz kimi mənim də o vaxtdan bəri sevincimin həddi-hüdudu yerə-göyə sığmır.

Şəhərimizin möhtəşəm guşəsində əzəmətlə ucalan xalqımızın ulu öndəri Heydər Əliyevin büstü qarşısında düşüncələrə dalıram. Bəli, bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda qazanılan uğurlar, insanlara bəxş olunan firavan yaşayışın təməlində məhz görkəmli dövlət xadiminin əsasını Naxçıvanda qoyduğu uzaqgörən siyasət, həyata keçirdiyi islahatlar, icrasına başladığı layihələr dayanır. Dahi şəxsiyyətin ölkəmizə hər iki rəhbərliyi dövründə gördüyü böyük işlər, xüsusilə də dünyaya göz açıb böyüdüyü, təhsil aldığı, canı qədər sevdiyi Naxçıvanı üçün atdığı addımların nəticəsi xronoloji ardıcıllıqla hafizəmdə sıralanır. Müdrik insan dəfələrlə muxtar respublikaya bağlılığını dilə gətirmişdir: ***"Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur".*** Naxçıvan sakinləri ilə söhbəti zamanı söylədiyi bu dəyərli sözlər ulu öndərin məhz doğma diyara olan sonsuz sevgisinin növbəti təzahürü idi. Ümummilli liderin ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin"*** fikirlərinin reallığını isə bu gün Ali Məclis Sədrinin həyata keçirdiyi böyük işlər nəticəsində firavanlıq içində yaşayan hər bir naxçıvanlı görür və dərindən dərk edir, muxtar respublikanın qarış-qarış gəzdikcə hər addımda artan yüksəlişin, böyük inkişaf proseslərinin şahidi oluruq. Ümummilli liderimizin siyasi xəttinin yolumuzu aydınladan nuru hələ neçə əsr bundan sonra da parlaqlığını, dəyərini itirməyəcək, qədirbilən xalqın öz xilaskarı üçün qurduğu mötəbərlik mərtəbəsi hər zaman belə yüksək nöqtədə dayanacaq.

*Qısa ekskursiya zamanı müxtəlif guşələrdə ucaldılan, ayrı-ayrı tarixi dövrləri, fərqli sahələri təcəssüm etdirən daş abidələr mənə Oğuz yurdunun keçmişindən, bu günündən söhbət açır. Əgər siz də ululardan ulu, qədim soykökünə malik bu diyar haqqında öyrənmək istəsəniz, şəhərimizin daş abidələrinin səsinə qulaq verməniz yetər.*

✍ **Nail ƏSGƏROV**

# Toxuculuq təlimi keçirilib



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Kəngərli Rayon İcra Hakimiyyəti tərəfindən qədim toxuculuq sənətinin inkişaf etdirilməsi, qadınların bu sahəyə marağının artırılması, eyni zamanda onların sosial vəziyyətinin yaxşılaşdırılmasına kömək etmək məqsədilə rayonda yaşayan müvafiq kateqoriyadan olan qadınlar arasında toxuculuq peşəsinin öyrənilməsi ilə bağlı növbəti təlim keçirilmişdir. Təlimdə 13 sağlamlıq imkanları məhdud, 8 xüsusi qayğıya ehtiyacı olan qadın və Kəngərli Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin 4 dərnək rəhbəri olmaqla, cəmi 25 nəfər iştirak edib.

İstedadlı toxucu qadın Gülsüm Kəngərli təlimə əyani vəsaitlərdən istifadə etməklə başlayıb. Təlim maraqla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***


### *İtmişdir*

Şərur rayonu, Düdəngə kəndində yaşamış Əsgərov Məhərrəm Adil oğluna məxsus JN-1116A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Rzayev Əlövsət Salman oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Məmmədov Əli Xudayar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 695